**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# MƏKTƏBƏQƏDƏR TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ UŞAQLARIN MƏKTƏB TƏLİMİNƏ HAZIRLIĞININ PEDAQOJİ ƏSASLARI

İxtisas: 5804.01 – Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi

Elm sahəsi: Pedaqogika

İddiaçı: **Gülnarə Xaliq qızı Arıxova**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**NAXÇIVAN – 2024**

Dissertasiya işi Gəncə Dövlət Universitetinin Ümumi pedaqogika kafedrasında yerinə yetirilmişdir.

| | |
|---|---|
| Elmi rəhbər: | pedaqoji elmlər doktoru, professor<br>**Ləzifə Nağı qızı Qasımova** |
| Rəsmi opponentlər: | pedaqoji elmlər doktoru, professor<br>**Şəhla Qasım qızı Əliyeva** |
| | Pedaqogika üzrə fəlsəfə doktoru, dosent<br>**Sevda Sultan qızı Tağıyeva** |
| | Pedaqogika üzrə fəlsəfə doktoru, dosent<br>**Südabə Kamil qızı Məmmədova** |

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Naxçıvan Müəllimlər İnstitunun nəzdində fəaliyyət göstərən FD 2.40 Dissertasiya şurası.

| | |
|---|---|
| Dissertasiya şurasının sədri:<br>________________ | pedaqoji elmlər doktoru, professor<br>**İsmayıl İsrafil oğlu Əliyev** |
| Dissertasiya şurasının elmi katibi:<br>________________ | pedaqogika üzrə fəlsəfə doktoru, dosent<br>**Qızıltac Tarverdi qızı Şahbazova** |
| Elmi seminarın sədri:<br>________________ | pedaqoji elmlər doktoru, professor<br>**Rüfət Lətif oğlu Hüseynzadə** |

# TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə səviyyəsi.** Qloballaşma dövründə, dünyanın təhsil və tərbiyə sisteminə birləşməyə doğru getdiyimiz hazırkı şəraitdə dinamik inkişafda olan təhsilimizin bütün pillələrində mühüm dəyişikliklər baş verir, islahatlar həyata keçirilir və çox mühüm, möhtəşəm vəzifələr yerinə yetirilir. Bu möhtəşəm işlər müstəqillik illərində böyük inamla irəlilləyən Azərbaycan Respublikasının siyasi, sosial və mədəni həyatında baş verən dəyişikliklərdən, yeni Konstitusiyanın qarşıya qoyduğu mühüm tələblərindən irəli gəlir. Bu gün ölkəmizə cəmiyyəti idarə etmək üçün daha da yüksək hazırlığa malik, geniş, ətraflı düşünən və müstəqil fəaliyyət göstərən şəxslərin yetişdirilməsi zərurəti meydana çıxır. Ölkəmizin vətəndaşları daha sağlam, daha ağıllı və bilikli, daha hazırlıqlı olmalıdır. Müstəqil Azərbaycan Respubilikasının idarə olunması, millətin inkişafı gələcək illərdə hazırkı gənc nəslin üzərinə düzəşəcəkdir. Bu baxımdan məktəbəqədər tərbiyə və təhsil müəssisələrdə təkmil təhsil və tərbiyə sistemi yaradılmalıdır.

Ulu öndərimiz Heydər Əliyev deyirdi ki, *"Uşaqlar bizim gələcəyimizdi"*; gələcəyimizi necə tərbiyə edəcəyiksə, böyüdəcəyiksə, ölkəmizin, millətimizin, dövlətimizin gələcəyi də məhz bundan asılıdır. Gələcək nəslimizin daha sistemli, daha planlı tərbiyəsi məktəbə qədər təhsil müəssisələrindən başlayır. Göründüyü dahi rəhbər məktəbəqədər yaşlı uşaqların təlim və tərbiyəsinə böyük diqqət və qayğı ilə yanaşmış, bu dövrün hazırlığını yüksık qiymətləndirmişdir.

Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası təhsilimizin inkişafında, təkmilləşdirilməsində, onun müasir dövr üçün modernləşdirilməsində yeni bir səhifə açmışdır. Bu srategiyanın həyata keçirilməsi üçün dövlət həmçinin uzun müddətli fəaliyyət planı da müəyyənləşdirilmiş və bu sahədə təhsil işçilərinin qarşında konkret vəzifələr qoyulmuşdur.Göstərilən həmin dövlət sənədində məktəbəqədər tərbiyə və təhsilin gələcək inkişafı üçün perspektivlər göstərilmişdir: Həmin dövlət təhsil strategiyasında deyilir:

*“Bu gün müasir dövrdə təməl bacarıqlar uşaqlıq dövrünün ilk illərindən əldə edilir. Buna görə də uşaqların zehninin erkən yaş dövründən inkişaf etdirilməsi çox vacibdir. Bu səbəbdən də məktəbəqədər təhsilin inkişafı dövlət siyasətində mühüm və əhəmiyyətli yer tutur”.* [1]

*Azərbaycan Respublikasında Təhsilin inkişafı üzrə Dövlət Strategiyası* təhsilimizin inkişafında, o cümlədən məktəbəqədər təhsilin inkişafı üçün geniş perspektivlər açmış, sənəddə təhsilin bu ilk pilləsinin yeniləşdirilməsi, modernləşdirilməsi və məktəbə hazırlıq qruplarında əlverişli imkan və şəraitin yaradılması xüsusi olaraq göstərilmişdir. Bu mühüm dövlət sənədində göstərilir ki, təməl bacarıqlar uşaqlıq dövrünün ilk illərindən başladığından və bu bacarıqlar əldə edildiyinə görə uşaqların zehninin erkən yaş dövründən inkişaf etdirilməsi çox vacibdir.

Göründüyü kimi məktəbəqədər təhsil dövlət siyasətinin mühüm bir sahəsidir. Gələcək nəslin təməl bilik və bacarıqları təhsilin bu pilləsində qoyulur. Bu cəhətdən məktəbəqədər təhsilin bütün pillələrində, xüsusilə məktəbə hazırlıq qruplarında təhsilin məzmunun yeniləşdirilməsi, təkmilləşdirilməsi və yeni kurikulumların hazırlanması prioritet məsələ kimi təhsil işçilərinin, pedaqoqların, tədqiqatçıların qarşısına bir vəzifə olaraq qoyulmuşdur.

Bunu da qeyd edək ki, heç də təsadüf hesab edilməməlidir ki, “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanunun”da məktəbəqədər təhsilin qarşısında ciddi və mühüm tələblər və vəzifələr qoyulmuşdur: *“Məktəbəqədər təhsil təhsilmizin ilk pilləsi olmaqla ailənin və cəmiyyətin maraqlarına tam uyğun olaraq, uşaqların erkən yaş dövründən başlayaraq intellektual, fiziki, estetik və psixi inkişafını, sadə əmək vərdişlərinə yiyələnməsini, istedad və qabiliyyətinin üzə çıxarılmasını, sağlamlığının qorunmasını, estetik tərbiyəsini, təbiətə və insanlara həssas münasibətinin formalaşmasını təmin edir... Beş yaşlı uşaqlar üçün məktəbə hazırlıq*

[1] Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət strategiyası” 24 oktyabr 2013-cü il tarixli sərəncamı. // Xalq. -2013, 25 oktyabr. –s. 1

*zəruridir”*[2] .

Qarşıda böyüyən gənc nəslin əsas bilik və bacarığı təhsilin məktəbəqədər pilləsində, bu mərhələsində qoyulur. Məsələyə bu baxımdan yanaşdıqda məktəbəqədər təhsilin bütün mərhələləri və səviyyələri təkmilləşdirilməlidir. Bu məsələ bir əsas vəzifə kimi təhsil işçilərinin, pedaqoqların, tədqiqatçıların qarşısına bir vəzifə olaraq qoyulmuşdur.

Təsadüfi deyildir ki, bugünkü “*Təhsil haqqında” Azərbaycan Respublikasının Qanunun”*da məktəbəqədər təhsilin qarşısında çox ciddi və mühüm vəzifələr qoyulmuşdur.

Məktəbəqədər təhsil müəssisələri böyük təhsil sisteminin ilkin pilləsi olmaqla uşaqların tərbiyəsi, təlimi və təhsili vəzifəsini uğurla yerinə yetirir. Bu təhsil müəssisələrinin son nəticədə məqsədi yetişən gənc nəsli – böyüyən uşaqları ümumtəhsil məktəbi təliminə hazırlamaqdır.Azərbaycan Respublikasının “Təhsil haqqında” Qanununda həmçinin göstərilir ki, beşyaşlı uşaqlar üçün məktəbəhazırlıq təlimi zəruridir.

Qanunda bunun nəzərə alınmasına səbəb odur ki, uşağın təhsilinin sonralar nə dərəcədə müvəffəqiyyətlə gedəcəyi məhz onun bu başlanğıc təhsilindən və tərbiyəsindən asılıdır.

Məktəbə hazırlığın əsas məqsədi isə 5 yaşlıların imkan və tələblərinə, maraq və meylinə uyğun olaraq məktəbə hazırlıq mərhələsini lazımi səviyyədə təşkil etməkdir, 5 yaşlılarda düzgün oxumaq və yazmaq həvəsinin, hesabalamaq qabiliyyətinin onların məktəbə düzgün münasibətinin inkişaf etdirilməsinə və bu kimi bacarıqların möhkəmləndirilməsinə nail olmaqdır.

Bu cəhətdən Respublikamızda məktəbəqədər təhsilin bu günkü müasir tələblər səviyyəsinə çatdırmaq üçün, 5 yaşlı uşaqların əqli, fizioloji və psixoloji cəhətdən inkişaf etdirilməsi üçün lazımi əlverişli şəraitin yaradılması mühüm əhəmiyyət kəsb edir.Azərbaycan Respublikasının Prezidenti möhtərəm Cənab İlham Əliyevin 12. 04. 2007- ci il tarixli xüsusi sərəncamında qarşıya qoyduğu tələb çox əhəmiyyətlidir. Göstərilən sərəncamda xüsusi

---

[2] “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanunu // 19 iyun 2009-cu ildə qəbul edilmişdir. -Bakı: Hüquq ədəbiyyatı. -2009, -s.3.

olaraq deyilir ki, *“Azərbaycan Respublikasında məktəbəqədər tərbiyə və təhsilin yeniləşdirilməsi Proqramı (2007-2010-cu illər) təsdiq edilsin və proqramda 5 yaşlıların məktəbə hazırlığı lazımi pedaqoji tələblərə uyğun olaraq təşkil edilsin”*[3]. Bu günkü məktəbəqədər təhsil müəssisələrində ölkəmizin gələcək böyük qurucuları, alimləri, mühəndisləri, həkimləri, müəllimləri, yaradıcı insanları, vətənin müdafiəçiləri və dahilər böyük şəxsiyyətləri yetişir.

Uşaqların ilk sistemli, planlı, pedaqoji əsaslar üzərində mükəmməl qurulan tərbiyə işi məktəbəqədər təhsil müəssisələrimizdən başlayır. Burada səriştəli müəllim və tərbiyəçilər uşaqların tərbiyəsinə böyük qayğı və məhəbbətlə yanaşır, onları gələcəyin böyük vətəndaşları kimi yetişdirir. Ölkəmizdə məktəbəqədər təhsil əsasən 3-6 yaşlı uşaqları öz mühitində birləşdirərək pedaqoji, psixoloji əsaslar üzərində qurulan mükəmməl tərbiyə və təhsil sistemini həyata keçirir.

Məktəbəqədər təhsil müəssisələrimizdə fəaliyyət göstərən məktəbə hazırlıq qrupları ümumi təhsilin səviyyəsinin yüksəldilməsində xüsusi əhəmiyyət kəsb edir. Çünki ümumtəhsil məktəbinin təlim-tərbiyə keyfiyyəti bir çox cəhətdən onun ilk pilləsində təməl bilik və bacarıqların uşaqlar tərəfindən yaxşı mənimsənilməsindən, sağlamlığından, onların intellektual səviyyəsinin yüksəldilməsindən, mənəvi, mədəni, psixoloji hazırlığından çox asılıdır.

Qeyd edək ki, məktəbə hazırlıq qruplarının təşkili qaydaları 08 yanvar 2010-cu ildə hazırlanaraq tətbiqinə rəvac verilmişdir. Orada göstərilən qaydalar isə Azərbaycan Respublikasının “Təhsil Qanunun”da təsbit edilmişdir. Orada göstərilir ki, 5 yaşlı uşaqlar üçün məktəb təliminə hazırlıq zəruri olmaldıır. Bu məsələ Təhsil sstrategiaysında da göstərilmişdir.

2017 –ci ilin 16 iyun tarixində “Məktəbəqədər Təhsil haqqılnda Qanun” təsdiq edilmişdir ki, həmin Qanunda da 5 yaşlı uşaqların məktəb təliminə hazırlıq məsələsi xüsusi qeyd edilmişdir.

---

[3] Azərbaycan Respublikasında məktəbəqədər təhsilin yeniləşdirilməsi Proqramı / 2007-2010-cu illər // Azərbaycan müəllimi -2007, 13 aprel. -s. 1.

Məktəbəqədər təhsil müəssisələrinin məktəbə hazırlıq qruplarında aparılan təlim-tərbiyə işlərinin əsas vəzifəsi uşaqların hərtərəfli fiziki və psixoloji inkişafını təmin etmək və uşaqların elmi dünyagörüşünü, intellektual səviyyəsini, mənəvi, əxlaqi mədəniyyətini yüksəltməkdir.

Bu gün məktəbəqədər təhsil müəssisələrində bu keyfiyyətlərin mükəmməl şəkildə yetişən gənc nəslə aşılanması sabah ümumtəhsil məktəbində, daha sonra onun cəmiyyətdə fəal mövqe tutmasında, bir layiqli vətəndaş, bir böyük şəxsiyyət kimi yetişməsində özünü göstərəcəkdir. Demək ölkənin gələcək taleyi bu günkü kiçik vətəndaşlardan asılıdır.

Bütün dövlətlərdə olduğu kimi, Azərbaycan Respublikasında da təhsil sisteminin ilk pilləsini məktəbəqədər təhsil təşkil edir. Ölkəmizdə məktəbəqədər təhsil müəssisələrində uşaqların təlim və tərbiyə məsələlərinə böyük diqqət yetirilir. Bunun nəticəsidir ki, bu mühitdə məktəbəqədər təhsil müəssisələrinin bütöv bir şəbəkəsi yaradılmış, milyonlarla insanlar öz uşaqlıq dövrünü məhz burada keçirmiş, buradan pərvazlanmış, Vətənə, xalqa xidmət etmək, onu sevmək kimi zərif hisslərin əsasları məhz burada qoyulmuşdur. Bu tərbiyə müəssisələrində müxtəlif tarixi dövrlərdə mütəxəssislər tərəfindən milli ənənələri, uşaqların yaş və fərdi xüsusiyyətlərini nəzərə almaqla proqramlar hazırlanmış, metodik vəsait və kitabçalar yayılmış, onların hərtərəfli və tam imkanı təmin edən didaktik oyunlar sistemi işlənmiş və təcrübəyə tətbiq edilmişdir.

Tədqiqatın işlənmə səviyyəsinə gəlincə onu deməliyik ki, uşaqların məktəb təliminə hazırlığı problemi tarix boyu görkəmli pedaqoqların psixoloqların, metodistlərin diqqətində olmuşdur.

Qeyd edək ki, xüsusilə bu sahədə ən ciddi axtarışlar aparan mərhum professorumuz Y.Ş.Kərimovun adı ilə daha çox bağlıdır. O, 1970-ci illərdə 5 yaşlı uşaqların məktəb təliminə hazırlanmasının müxtəlif istiqamətlərini ətraflı tədqiq etmiş dəyərli araşdırmalar aparmışdır.

Sonralar professor Y.Ş. Kərimovun və professor Nurəddin Kazımovun başçılığı ilə professor Vidadi Xəlilov (59), prodessor Mircəfər Həsənov (53), Ziyad Osmanov, Hənifə Cəfərli, Hüseyn Ələkbərov, Baloğlan Quliyev, A.Rəhimov, S.Məmmədov, Oqtay

Abbasov və başqa görkəmli alimlər bu araşdırma sahəsində önəmli araşdırmalar aparmış, maraqlı, ciddi tədqiqat işləri aparmışlar.

Tədqiqatımızın müxtəlif sahələri ilə bağlı fəlsəfə doktoru proqramı əsasında dissertasiya işləri də yazılmışdır. Tədqiqatçı pedaqoq alim Ayşə Məmmədova uşaq bağçalarında beşyaşlıların təlimi, məktəbə hazırlanması problemi ilə bağlı geniş tədqiqat işləri aparmış və dissertasiya yazıb müdafiə etmişdir. Müəllif tədqiqatını yalnız beşyaşlıların üzərində qurmuş, bu barədə faydalı bir monoqrafiya yazmışdır. A.Məmmədova bildirir ki, 5 yaşlı uşaqların məktəbdəki uğurları onun bağça yaşı dövründəki məktəb təliminə necə və nə səviyyədə hazırlığından, dünyagörüşündən çox asılı olur. Bu cəhətdən uşaqların məktəbə hazırlığı lazımi pedaqoji tələblərə uyğun təşkil edilməlidir.

Digər bir dissertasiyada isə araşdırdığımız problem psixoloji cəhətdən araşdırılmışdır. Bu dissertasiyanın müəllifi Rəfiqə Məmmədovadır ki, onun mövzusu "*Uşaqların məktəb təliminə hazırlığının psixoloji cəhətləri*" adlanır.

Hər iki tədqiqat uşaq bağçalarında məktəbə hazırlıq qruplarında işin pedaqoji və psixoloji təşkili üçün çox faydalı hesab edirik. Biz tədqiqatımızda həmin dissertasiyaların, tədqiqat işlərinin mümkün qədər təcrübələrinə və yeri gəldikcə isə həmin tədqiqatların əldə edilmiş nəticələrinə və gərəkli materialalarına müraciət etmişik.

Tədqiq etdiyimiz mövzu psixoloq alimlərin də da nəzər diqqətindən kənarda qalmamışdır.

Belə ki, prof. Ə.Ə.Qədirov (84), prof. R.Əliyev (34), prof. Ə.Ə.Əlizadə (35), prof.H.Ə.Əlizadə (36). M.Həmzəyev (57), L.Bağırova (20), P. Məmmədova (75) bu sahədə geniş və ətraflı tədqiqat işləri aparmış, dəyərli, məzmunlu əsərlər yazmışlar.

Uşağın məktəbə psixoloji cəhətdən hazırlığı onun üçün bu vaxta qədər əsas fəaliyyət növü olan və tələbatlarını ödəyən oyundan yeni fəaliyyət, növünə keçməsini və həmin fəaliyyət növünün onun tələbatlarını ödəyəcək əsas fəaliyyət kimi dərk edilməsini təmin edən ən mühüm amildir.

Psixoloq professor Ramiz Əliyev isə uşaqların məktəbə psixoloji cəhətdən hazırlığının əsas motivləri və şəxsiyyətinin

formalaşdırılması məslələrini tədqiq etmişdir ki, bu tədqiqat işlərinə də yeri gəldikcə müraciət edilmişdir.

**Tədqiqatın obyekti** məktəbəqədər təhsil müəssisələrində uşaqların məktəbə hazırlıq prosesidir.

**Tədqiqatın predmeti** məktəbəqədər təhsil müəssisələrinin məktəbə hazırlıq qruplarının məktəb təliminə hazırlığının pedaqoji əsaslarını müəyyən etməkdir.

**Tədqiqatın məqsədi** məktəbə hazırlıq qruplarında məktəb təliminə hazırlığın məzmununu, forma və metodlarını, optimal imkan və yollarını müəyyən etməkdir.

**Tədqiqatın vəzifələri:**

1. Problemlə əlaqədar proqram tələblərinin, mühüm dövlət sənədlərin öyrənilməsi;
2. Məktəbəqədər təhsil müəssisələrinin məktəbə hazırlıq qruplarında mövcud vəziyyəti öyrənmək;
3. Problemlə bağlı elmi-pedaqoji və metodiki ədəbiyyatı təhlil etmək;
4. Məktəbəqədər təhsil müəssisələrinin məktəbə hazırlıq qruplarında məktəb təliminə hazırlığın optimal yollarını və imkanlarını öyrənmək;
5. Məktəbəqədər təhsil müəssisələrinin məktəbə hazırlıq qruplarında məşğələ prosesini izləmək;
6. Məktəbəqədər təhsil müəssisələrinin məktəbə hazırlıq qruplarında uşaqların məktəb təliminə hazırlığı ilə əlaqədar ümumiləşdirmələr aparmaq, təkliflər vermək.

**Tədqiqatın fərziyyəsi**: Əgər məktəbəqədər təhsil müəssisələrinin məktəbə hazırlıq qruplarında uşaqların fiziki, psixoloji, intellektual səviyyələri, habelə coğrafi mühit, yerli şərait nəzərə alınarsa, məşğələlərə oyun elementləri daxil edilərsə, yeni pedaqoji texnologiyalardan istifadə edilərsə, məktəbə hazırlıq qruplarında işin keyfiyyətini qənaətbəxş olar və uşaqların ümumtəhsil məktəbində təhsilə hazırlığı təmin edilər.

**Tədqiqatın metodları**; Tədqiqat prosesində müşahidə, müsahibə, eksperiment, anketləşdirmə kimi metodlardan istifadə edilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

- Məktəb təhsilinin uğurlu başlanğıcı məktəbəqədər müəssissələrdə məktəb təliminə hazırlığın səmərəli təşkilindən asılıdır.
- Məktəbəqədər təhsil müəssisələrinin məktəbə hazırlıq qruplarında işin müvəffəqiyyətlə təşkil edilməsində mikromühitin təsirinin nəzərə alınmalıdır.
- Məktəbəqədər təhsil müəssisələrinin məktəbə hazırlıq qruplarında məktəb təliminə davam etmək uşaqların fiziki, psixoloji, intellektual inkişafından asılıdır.

**Tədqiqatın elmi yeniliyi**: Məktəbəqədər təhsil müəssisələrinin məktəbə hazırlıq qruplarında aparılan işin məzmunu, imkan və səmərəli yolları tədqiq edilmiş və ümumiləşdirilmişdir.

**Tədqiqatın nəzəri və praktik əhəmiyyəti**: Alınan nəticələr məktəb təliminə hazırlığın nəzəri əsaslarının təkmilləşməsinə kömək edəcəkdir. Tədqiqat materiallarından tələbə və müəllimlər mühazirə və seminar məşğələlərində, tədqiqatçıların məktəbəqədər təhsillə bağlı kitabların, dərslik və dərs vəsaitlərinin yazılmasında dəyərli mənbə kimi istifadə edə bilərlər.

**Tədqiqatın aprobasiyası**: Tədqiqatın nəticələri və ayrı-ayrı hissələri üzrə Gəncə Dövlət Universitetində məruzələrlə çıxış edilmiş, tədqiqat işimizlə bağlı 10 məqalə, 4 beynəlxalq elmi konfrans tezisi, bir məqalə də xaricdə nəşr edilmişdir.

Tamamladığımız dissertasiyanın quruluşuna gəlincə deyə bilərik ki, dissertasiya giriş 3 fəsil, 10 paraqraf, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

Dissertasiya Giriş 18000 işarə, I fəsil 62000 işarə, II fəsil 48000 işarə, III fəsil 76000 işarə, nəticə 8000 işarə, ümumilikdə 212000 işarədən ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiaynın giriş hissəsində mövzunun aktuallığı əsaslandırılmış, işlənmə dərəcəsi, obyekti, predmeti, məqsədi, vəzifələri, fərziyyəsi, metodoloji əsasları, elmi yeniliyi, nəzəri və

praktiki əhəmiyyəti, tədqiqatın etibarlılığı, aprobasiyası şərh edilmişdir.

**Dissertasiyanın I fəsli "Məktəbəqədər təhsil müəssisələrində uşaqların məktəb təliminə haqırlığının nəzəri məsələləri"** adlanır. Bu fəsil 4 paraqrafdan ibarətdir. **1.1. "Azərbaycanda məktəbəqədər təhsilin təşəkkülü və inkişafinin ilk dövrlərində uşaqların məktəb təliminə hazırlığı məsələləri"** adlanan paraqrafda Azərbaycanda məktəbədəqər təhsilin təşəkkülü və inkişafına bir nəzər yetirlir və göstərilir ki, hələ 1907-ci ildə ilk dəfə olaraq, Azərbaycanda Bakının Bayıl qəsəbəsində Alisa İvanovna Radçenko tərəfindən ilk uşaq tərbiyə müəssisəsi təşkil edilmişdir. "*Dəcəllər məktəbi"* adlanan bu uşaq bağçası ilk olmuşdur. 1910-cu ildə ikinci uşaq bağçası Sumarikova Zinaida Alekseyeva tərəfindən yaradılmışdır. Bu da Bayıl qəsəbəsində yaradılmışdır. Üçüncü uşaq bağçası isə 1914-cü ildə Baranova tərəfindən yaradılmışdır. Bu da Bakının fəhlə rayonu olan Bayılda yaradılmışdır. Yaradılan bu uşaq bağçalarında yuxarı yaş qruplarında məktəb təliminə hazırlıq qrupları da yaradılaraq, fəaliyyət göstərmişir. O dövrdə bu qruplarda aparılan işlərin əsas məqsədi uşaqları daha çox öz ətrafında toplamaq, sahibsiz, nəzarətsiz uşaqları, küçə uşaqlarını öz ətrafında birləşdirmək idi.

Qeyd edək ki, Hacı Zeynalabdın Tağıyevin təsis etdiyi Qız məktəbinin nəzdində açılan uşaq bağçasında elmi-pedaqoji əsaslı təlim- tərbiyə işləri aparılır və məktəbə hazırlıq qruplarında sistemli və ardıcıl metodiki işlər aparılırdı. Bu uşaq bağçasına yalnız varlı, zadəgan ailələrin uşaqları qəbul edilirdi. Bu varlı, zadəgan ailələri də bu uşaq bağçasına ardıcıl olaraq, yardımlar göstərirdilər.

Böyük şair, pedaqoq, müəllim Abdulla Şaiq Talıbzadə çətin həyat şəraitinə baxmayaraq, çox çalışaraq 1916-cı ilin yazında Bakıda Realnıy məktəbin nəzdində uşaq bağçası yaratmağa nail olmuşdur ki, burada 6-7 yaşlılar üçün məktəbə hazırlıq qpuplarında xüsusi proqram əsasında məktəbə hazırlıq məşğələləri keçirilirdi.

Bakıdakı yaranan və daha böyük fəaliyyət göstərən digər uşaq bağçası da 1916-cı ilin payızında açılmışdır ki, onun da ilk müdiri L. Kələntərova olmuşdur.

Bakıda yaradılan bu ilk uşaq bağçalarında hələ kifayət qədər

metodik ədəbiyyatın olmaması, kadrların kifayət qədər məktəbəqədər pedaqogika ilə silahlanmadıqlarından uşaqların məktəbə hazırlığı məsələləri elmi – pedaqoji nəzəriyyəyə, metodiki əsaslara deyil, təcrübəyə əsaslanaraq həyata keçirilirdi.

1920-ci il may ayının 27-də Nəriman Nərimanov Xalq Maarif Komissarlığına məкtub ünvanladı. Məкtubda bir həftə müddətində Baкı şəhərinin müsəlman məhəllələrində uşaq bağçalarının təşкil edilməsi və bu məqsədlə də şəhərin bütün müəllimlərin səfərbərliyə alınması, uşaq bağçalarına hər cür kömək və yardımda olmaları tələb edilirdi. 1920-ci ildə Azərbaycanda məktəbəqədər təhsil şöbəsi uşaq bağçaları üçün metodiki təlimat, fəaliyyət üçün pedaqoji prinsiplər hazırlayaraq bağçalara göndərilmişdi. Bu prinsipə görə uşaq bağçalarında yaş dərəcələrinə uyğun qrupların yaradılması və yaş dərəcələrinə uyğun iş formalarının seçilməsi nəzərdə tutulurdu. Bu təlimatda həmçinin 6-7 yaşlı uşaqların məktəb təliminə hazırlığı üşün xüsusi proqram da hazırlanmışdı. Həmin təlimatın əsas prinsiplərdən biri də təlim-tərbiyə işlərinin hər xalqın öz dilində aparılması, adət və ənənələrin qorunması idi. Məкtəbəqədər müəssisələrin peşəкar tərbiyəçi кadrları ilə təmin edilməsi məqsədi ilə 1920-ci ilin 15 iyunundan başlayaraq Bakıda qısamüddətli pedaqoji кurslar da fəaliyyətə başladı. Bu кurslarda məşğələlər Azərbaycan və rus dillərində aparılırdı. Bununla yanaşı Baкıda nisbətən yüкsəк təhsil verən Frebel кursları da təşkil edilmişdi.

1921-ci ilin 11 yanvarında Nəriman Nərimanovun göstərişi və xüsusi sərəncamı ilə Bakı şəhərində Məktəbəqədər Tərbiyə İnstitutu açıldı. Bu çox mühüm bir hadisə idi. Artıq ixtisaslı məktəbəqədər təhsil işçiləri, mütəxəssislər hazırlandı. Məktəbəqədər təhsil müəssisələrinin şəbəkəsi genişləndi, müasir pedaqoji kadrlar, mütəxəssislər uşaq bağçalarında daha təkmil fəaliyyət göstərməyə başladılar. Təbii ki, belə ixtisaslı pedaqoji kadrların sayəsində məktəbəqədər təhsil, məktəbəqədər pedaqogika bir elm kimi inkişaf etməyə başladı. Uşaq bağçalarında məktəbə hazırlıq qrupları ilə iş müəssisənin əsas fəaliyyət sahəsi oldu. Düzdür, bu sahədə sistemli, planlı işlər aparılmasa da bu sahəyə ciddi diqqət və nəzarət edilməyə başlandı.

Görülən tədbirlər nəticəsində məktəbəqədər tərbiyə

müəssisələrini sayı sürətlə artmağa başladı və müəssisələrdə yaş qrupları üzrə tərbiyə və təhsil işləri daha sistemli və pedaqoji əsaslarla fəaliyyət göstərməyə başladı. Artıq 1930-cu illərdən başlayaraq, məktəbəqədər pedaqogika bir elm kimi formalaşmağa başladı, dəyərli kitablar, elmi məqalələr yazıldı və uşaq bağçaları üçün milli proqramlar meydana gəldi. Dissertasiayada bu istiqamətdə müxtəlif dövrlər üzrə görülən işlər haqqında daha ətraflı məlumatlar verilir.

**Fəslin 1.2. paraqrafı ”Məktəbəqədər təhsil müəssisələrində uşaqların məktəb təliminə hazırlığının xüsusiyyətləri”** adlanır. Bu paraqrafda Məktəbəqədər təhsil müəssisələrində məktəb hazırlıq qruplarında məktəb təliminə hazırlığın pedaqoji prinsipləri, qruplarda aparılan təlim məşğələrinin pedaqoji əsasları, metodik xüsusiyyətləri tədqiq və təhlil edilir, dəyərli ümulişədirmələr aparılır ümumi pedaqoji nəticələr çıxarılır.

Dissertasiyada göstərilir ki, məktəbə hazırlıq qruplarında 5 yaşlıların psixologiyası və psixofiziologiyası diqqətlə öyrənilməli onların seciyyəvi xüsusiyyətləri, qabiliyyət və istedadları üzə çıxarılmamalıdır. Müəssisədə uşaqların ümumi inkişafına nəzarət etmək üçün xüsusi müşahidə gündəlikləri hazırlanmalı və bunlar portfolioda qeyd edilməldir. İstedadlı uşaqlar üzə çıxarılamlıdır. Hər bir uşağın fərdi – psixoloji xüsusiyyəti ətraflı öyrənilməlidir. Göstərilən qaydalara əsasən, məktəbəqədər təhsil müəssisələrinin məktəbə hazırlıq qruplarında hər bir həftəlik dərslərin sayı 12 dərs olmalıdır. Həmin dərslər aşağıdakılardır: 1. Savad təlimi və nitq inkişafı. 2. Məntiq və riyazi təfəkkürün inkişafı. 3. Ətraf aləmlə tanışlıq.4. Təsviri fəaliyyət. 5. Bədii təfəkkürün inkişafı. 6. Musiqi 7. Bədən tərbiyəsi. Qeyd edək ki, məşğələlələrin elmi- pedaqoji cəhətdən düzgün təşkli edilməsi üçün pedaqoq alimlərimzi tərəfindən metodik kitablar da yazılmışdır. O kitabların adları belədir: 1. Məktəbə hazırlıq üzrə təlim prosesisnin təşkli yolları. 2. Uşaqlarda bədii təfəkkürün inkişafı.3. Uşaq bağçasında musiqi məşğələlərinin təşkli. 4. Uşaq bağçasında fiziki mədəniyyət məşğələlərinin təşkili.

Bu metodik kitablar uşaq bağçalarında məktəbə hazırlıq qruplarında məşğələ aparan müəllimlər və tərbiyəçilələr üçün çox son

dərəcə faydalı və əhəmiyyətli metodik kitablardır.

Məktəbə hazırlıq qruplarında keçirilən hər bir məşğələnin müddəti 25-30 dəqiqə olmalıdır. Fənlərin tədrisi zamanı məşğələlər arasında 10 dəqiqəlik fasilələr verilir. Bəzi məşğələlər ola bilər ki zehni gərginlik tələb edirsə bu zaman 10 – 11 dəqiqəlik gimnastika hərəkətləri də edilməsi məsləhətdir. Dissertasiya bu məşğələlərin keçirilmə metodikası, texnoloji materialalrdan istifadə və s haqqında geniş məlumat verilmişdir.

**Fəslin 1.3. "Uşaqların məktəb təliminə hazırlanmasında məktəbəqədər təhsil müəssisələri ilə məktəb arasındakı varislik"** paraqrafı çox maraqlı və dəyərli məlumtlarla zəngin bir paraqrafdır. Burada məktəbə hazırlıq qruplarında tədrisin, tərbiyənin keyfiyyətini yüksəltmək üçün müəssisə və məktəb arasında, tərbiyəçi və müəllim arasında sıx pedaqoji əlaqələrin olması zəruri tələb kimi qeyd edilir, keyfiyyətin yüksəldilməsində mühüm amil kimi göstərlir.

Dissertasiyada təcrübələrə əsasən qeyd edilir ki, tərbiyəçi və müəllimlər arasında müxtəlif əlaqə formalarından istifadə edilir ki, bura aşağıdakıları daxil etmək olar: 1. Ümumtəhsil məktəblərinin məktəbə hazırlıq qrupunun dərslərində və uşaq bağçalarında məşğələlərdə qarşılıqlı iştirak etmək. 2. Müəllim və tərbiyəçilərin bayramlarda və şəhərciklərdə uşaqların tədbirlərində birgə iştirak etməsi və sonradan onları birlikdə müzakirə etmək. 3. Uşaq bağçası tərbiyəçilərinin öz yetişdirmələrini məktəbdə ardıcıl müşahidə etməsi, uğurlarını təqdir etməsi. 4. Müəllimlərin məktəbəqədər təhsil müəssisələrində uşaqların yaradıcılıq işlərindən ibarət sərgilərində iştirak etməsi. 5. Maraqlı peşələr haqqında müəllimlərin uşaqlarla söhbət və görüşünün təşkil edilməsi, maraqlı söhbətlərin keçirilməsi. Bu kimi əlaqələrin təşkili haqqında daha başqa forma və metodlar haqqında onların pedaqoji əsasları haqqında dissertasiyada ətraflı məlumatlar verilmiş, nümunələr göstərilmiş və ümumi nəticələr çıxarılmışdır.

**Fəslin 1.4. paraqrafı- "Uşaqların məktəb təliminə hazırlığında məktəbəqədər müəssisə ilə ailənin birgə fəaliyyəti" adlanır.** Ailə uşağın gələcəyini düşünməli, onu cəmiyyət üzvü kimi yetişdirməli, tələbatın bütün tələblərini tərbiyədə əks etdirməyə çalışmalıdır. Ailədə qarşılıqlı hörmət uşaqların tərbiyəsi işinin

qayğısına qalmağın əsas tərkib hissəsidir. Çünki ailənin ən mühüm funksiyası uşaqları tərbiyə etməkdir. Ailənin uşağa təsiri çoxsahəlidir. Elə buna görə də onu başqa forma ilə əvəz etmək çox çətindir. Ailə tərbiyəsi valideynin uşağa məhəbbəti və bunun müqabilində uşağın ata-anaya məhəbbəti kimi emosional əsasa malikdir ki, buda uşağın psixikasına çox güclü təsir göstərir. Ailə kiçik yaşlarından öz təsiri altında olan uşağı tədricən həyata alışdırır, görüş dairəsini genişləndirir, təcrübəsini artırır.

Uşaq ən gözəl insani münasibətləri-qayğıkeşliyi, hörmətcilliyi, xeyirxahlığı, əməksevərliyi, intizamı, təmizlik və səliqəliliyi, çalışqanlığı və s. ilk dəfə ailədən öyrənir. O, bütün bunları əyani şəkildə ata-anasının gündəlik həyatı nümunəsində mənimsəyir. Uşaqda əməksevərlik tərbiyəsi valideynin də, özgələrinin də əməyinə hörmət hissinin yaranması ilə əlaqələndirilməlidir.

Ailə üzvləri hər bir şəraitdə qarşılıqlı münasibətini yüksək mənəvi səviyyədə saxlamağa və bu münasibəti sağlam bünövrə üzərində qurmağa çalışmalıdır.

Valideyn öz uşağının tərbiyəsi üçün bilavasitə cavabdehdir. Valideynlər övladlarının təlim-tərbiyəsi ilə nə qədər ciddi məşğul olsalar, onların uşaqları bir o qədər məktəb təhsilini uğurla başlayar və respublikamız üçün layiqli vətəndaşlar kimi böyüyərlər.

Məktəbəqədər təhsil müəssisəsi ilə ailənin iş sistemi aydın məqsəd üzərində qurulmalıdır. Bu sahədə əvvəlki müvəffəqiyyətlər və nöqsanların yaranma səbəbləri öyrənilməli, təhlil edilməli və gələcək iş üçün aydın plan hazırlanmalıdır. Burada uşaqaların məktəb təliminə hazırlığı xüsusi yer tutmalıdır.

Məktəbə qədər təhsil müəssisəsi ilə ailə ilə işini planlaşdırarkən ailənin qarşısında duran vəzifələri konkret müəyyənləşdirir, uşaqların yaş xüsusiyyətlərinə uyğun olaraq, hər qrupa daxil olan uşaqlar üçün iş sistemi müəyyən edir.

Qruplarda valideynlərlə keçirilən tədbirlər ümumbağça tədbirləri ilə uzlaşdırılmalıdır. Deyə bilərik ki, əgər uşaqların fiziki tərbiyəsində məktəbə qədər təhsil müəssisəsi ilə ailənin əlbir işinə dair ümumbağça tədbiri keçiriləcəksə, onda qruplarda valideynlərlə keçirilən tədbirlərdə uşağın ailə rejimi, onun uşaqların fiziki sağlamlığında rolu, axşamlar və istirahət günü rejimə əməl etməyin

əhəmiyyəti xüsusilə nəzərə çatdırılmalıdır.Tərbiyəçilər müntəzəm olaraq ailə ilə əlaqə saxlamalı, uşaqların həyatını isə məktəbə gedənə kimi daim nəzarət altına almalıdırlar.

Dissertasiyada ailənin məktəbəqədər tərbiyə müəssisələri ilə bir neçə əlaqə formaları – kollektiv, fərdi,və qrup formaları haqqından dəyərli məlumatlar verilmişdir.

Müşahidələr göstərir ki, uşaqların valideynləri ilə sıx əlaqə saxlanması nəticəsində uşaqların tərbiyələrindəki çətinlikləri həm asanlıqla, həm də müvəffəqiyyətlə həll etmək olur. Bu cür əlaqə nəticəsində bağça uşaqların ailə-məişət şəraitini, ayrı-ayrı ailələrdə uşaqların müvəffəqiyyət və nöqsan cəhətlərini diqqətlə öyrənir, valideynlərin pedaqoji biliklərə yiyələnməsi üçün onlara müntəzəm və yaxından kömək göstərir.Uşaqların tərbiyəsində yol verilən bəzi qüsurlar bağça ilə ailənin zəif əlaqəsi nəticəsində baş verir. Məhz buna görə hər bir tərbiyəçi təkcə uşaqların özlərini deyil, onların ailəsini də öyrənməli, pedaqoji cəhətdən köməyə ehtiyac duyan ailələrlə müntəzəm əlaqə saxlamalıdır. Bütün bu əlaqələr tərbiyəçi ilə valideynlər arasında münasibətlərin düzgün müəyyənləşməsinə şərait yaradır, uşağın tərbiyəsində qarşıya çıxan çətinlikləri asanlıqla həll edir. Bu kimi fikirlərin yekunu olaraq göstərilir ki, ailə uşaqların məktəb hazırlanmasında müəllim və tərbiyəçilər qədər məsuliyyət daşıyır və onlarla birlikdə daim pedaqoji prosesdə olmalıdırlar.

**Dissertasiyanın II fəsli "Məktəbə hazırlıq qruplarında uşaqların məktəbə hazırlığının əsas istiqamətləri"** adlanan fəsil 4 paraqrafdan ibarətdir.

**2.1. "Məktəbə hazırlıq qruplarında uşaqların fiziki hazırlığı"** adlanan paraqrafda ifadə olunan əsas tezis ondan ibarətdir ki, uşaqların məktəb təliminə hazırlığında ilk növbədə uşaqların fiziki sağlamlığı önəmli əhəmiyyət daşıyır. Məktəbə hazırlığın təşkilində fiziki hazırlığının əsas istiqamətləri aşağıdakı kimi olmalıdır: 1. *Uşaqların sağlamlığı üçün uşaq orqanizminin bütün üzvlərinin möhkəmliyi və yetişkənliyi.*

*2. Uşaqların hərəki fəaliyyətinin, xüsusilə kiçik hərəkətdə olan motorikanın ahəngdar inkişafı.*

*3. Uşaqların fiziki cəhətdən qabiliyyətlərinin inkişaf etdirilməsi*

*4. Uşaqların əqli cəhətdən qabiliyyətlərinin inkişaf etdirilməsi.*

Ümumtəhsil məktəbinin və məktəbə qədər təhsil müəssisəsinin məktəbə hazırlıq qruplarında 5-6 yaşlı uşaqların bədən tərbiyəsi dərslərində fiziki cəhətdən hazırlığı əsasən 4 istiqmətdə aparılır: 1.Uşaqları fiziki sağlamlıq haqında biliklərlə maarifləndirmək.2. Uşaqları bədən tərbiyəsi və idman sahəsində əzələlərinin inkişaf etdirilməsi. 3. Uşaqların bədən tərbiyəsi və idman işlərinə hazırlığı. 4. Uşaqları fiziki cəhətdən mədəniyyətə sövq etdirmək. Uşaqların fiziki tərbiyəsi zamanı onların bədən əzələlərinin inkişaf etdirilməsi ilə bərabər, həm də uşaqlarda yüksək mənəvi zənginlik, əxlaqi saflıq yaratmaq, formalaşdırmaq lazımdır. Belə keyfiyyətlər sırasına aşağıdakılar daxildir: 1. Mədəni davranış qaydalarına əməl etmək; 2. Uşaqlarda xeyirxalıq tərbiyə etmək; 3. Uşaqlarda insanalara qarşı səmimilik və qayğıkeşlik, insani keyfiyyətlər formalşdırmaq; 4. Azərbaycan xalqının milli adət və ənənələrinə hörmət tərbiyə etmək. Bütün bunlar göstərir ki, insan həm bədəncə sağlam olmalı, həm də ruhən sağlam olmalıdır. Yəni müdriklərin dediyi kimi sağlam bədəndə sağlam ruh olar, sağlam ruhda da sağlam bədən olar.

Uşaqların fiziki tərbiyəsi əsas etibarilə kollektiv və ya qrup formada tətbiq edilir. Bədən tərbiyə dərsləri uşaqlarda aşağıdakı mənəvi-əxlaqi keyfiyyətlər formalaşdırır: 1. Kollektivçilik. 2.Bilrik.3. Dostluq və yoldaşlıq. 4. Əməkdaşlıq 5. Mərhəmət və qayğıkeşlik6. insanpərvərlik. 7. Təvazökarlıq. 8. Qayğıkeşlik.

İdman hərəkətləıri və fiziki tərbiyə uşaqların zahiri gözəlliyinə və estetik baxışlarına yaxşı və qüvvətli təsir edir. Bu zaman uşaqların boyu, qaməti yaxşı inkişaf edir uşaqlarda ümumi estetik baxışlar və estetik duyğular, estetik görüşlər və formalaşır.

**Fəslin 2.2. "Uşaqların məktəb təliminə hazırlığı dövründə əxlaqi, mənəvi mədəni inkişafı və sosial hazırlığı"** adlanan paraqrfında göstərilir ki, uşaqların məktəbə hazırlıq dövründə əxlaqi, mənəvi mədəniyyət hazırlığı -buna sosial hazırlıq da deyə bilərik xüsusi əhəmiyyət kəsb edir. Mənəvi-əxlaqi keyfiyyətlərin təməli məhz bu dövrdə qoyulur. Məktəbə hazırlıq qruplarında uşaqların mənəvi tərbiyəsi üzrə aparılan işləri aşağıdakı istiqamətlərdə təşkil etmək olar: 1. Məktəbə hazırlıq qruplarında uşalqarda əxalaqi-mədənəvi mədəni duyğu və hisslər yaratmaq lazımdır. Bura daxildir

- vicdanlılıq, şərəf və ləyaqət hissi, namusvə borc hissi, inam və məsuliyyət hissi, vətənpərvərlik və vətəndaşlıq keyfiyyəti. 2. Məktəbə hazırlıq qruplarında uşalqarda fəal mənəvi mövqe yaratmaq lazımdır. 3. Məktəbə hazırlıq qruplarında uşalqarda əxalqi keyfiyyətlər formalaşdırılmalıdır. Dissertasiyada hər bir istiqamətin məzmunu və həyata keçirlməsi formaları metodları verilmişdir.

**2.3. "Uşaqların məktəb təliminə psixoloji hazırlığı məsələləri"** adlanan paraqrafda məktəbə hazırlıq qruplarında uşaqların psixoloji hazırlıq problemi təhlil və tədqiq edilir. Göstərlir ki, uşaqlar psixoloji cəhətdən məktəbə hazır deyillərsə, qalan hazırlıq işlərinin əhəmiyyəti yoxdur. Əlbəttə, uşaqların məktəb təliminə hazırlığı dövründə uşaqların psixoloji cəhətdən yəni uşağın təxəyyülü, təfəkkürü, diqqəti, hafizəsi, şüurluluğu və fəallığı xüsusi önəm daşımaqdadır. Uşaqların psixoloji hazırlığı zamanı onların ixtiyari diqqəti inkiaf etdirilməlidir. İxtiyarı diqqətin sabitləşməsi üçün uşaqlar maraqlı işlərə cəlb edilməldir. Onları məktəb təliminə hazrlarkən belə təlim işləri maraqlı qurulmalıdır. Təlim əyləncəli xarakterdə olmalı və təlim prosesinə oyun elementləri daxil edilməlidir. Uşaqların ixtiyarı diqqəti davamlı olaraq inkişaf etdirilməlidir. Bunun üçün də maraqlı təlimlərdən, çalışmalardan və tapşırıqlardan istifadə edilməlidir. Uşaqların məktəbə hazırlığı dövründə hafizələri də sürətlı inkişaf edir. Onları yaddaşı möhkemdir. Yadda saxlama qabiliyyəti də yüksəkdir. Bu cəhətdən onlar tez dil öyrənə bilirlər.

Yadda saxlamanın möhkəmliyi və kəskinliyi üçün forma ilə bərabər, həm də məzmun maraqlı və cəlbedici olmalıdır. Belə olan halda uşaqların yaddaşı və hafizəsi möhkəm olar, öyrənilən material uzun müddər yadda qalar.

**2.4. "Uşaqların məktəb təliminə hazırlığı dövründə zehni və intellektual inkişafı "** paraqrafında göstərlir ki, uşaqların zehni inkişafı və intellektual hazırlıqlarının inkişaf etdirilməsi mühüm pedaqoji problemdir. Belə ki, uşaqların psixoloji, fiziki, mənəvi və əxlaqi hazırlığı olsa da, zehni və intellektual inkişaf yoxdursa məktəbə hazırlığı tam hesab edə bilmərik. Zehni inkişafın bir neçə vəzifəsi vardır: 1. Uşaqların əqli idraki qüvvələrini inkişaf etdirmək. 2. Uşaqların potensial imkanlarını görməli, aşkar etməli və onları

inkişaf etdirmək. 3. Uşaqların intellektual qabiliyyətlərini inkişaf etdirmək.

**Dissertasiyanın III fəsli "Məktəbə hazırlıq qruplarında məşğələlər prosesində məktəb təliminə hazırlğının imkan və yolları**" adlanır. Bu fəsil 3 paraqrafdan ibarətdir. **3.1. "Məktəbə hazırlıq qruplarında təlim məşğələlərində uşaqların məktəbə hazırlığının didaktik əsasları"** adlanan paraqrafda göstərilir ki, müəssisədə təlimin əsas forması məşğələdir. Məhz məşğələlərdə uşaqlarda təlimə müsbət münasibət, motivasiya formalaşır. Məşğələdə tərbiyəçi planlı və ardıcıl biliklər verir, müxtəlif bacarıqlar formalaşdırır, müşahidə aparmaq, təhlil etmək, tutuşdurmaq, sadə nəticəyə gəlmək qabiliyyətini inkişaf etdirir. Ona görə də çox vacibdir ki, belə məşğələlərdə bilik uşaqlarda sevinc yaratsın, məşğul olmaq, məktəbə daxil olmaq arzusu oyatsın. Məşğələdə uşaqda müsbət emosional hal yaratmaq lazımdır. Belə şəraitdə uşaq təklif olunan məzmunu daha yaxşı qavrayır, tərbiyəçinin göstərişini həvəslə yerinə yetirir, müşahidədə fəal iştirak edir, inamla cavab verir, az həyəcanlanır. Bu uşaqlarda müəyyən mənəvi-iradi keyfiyyətlərin formalaşmasını da təmin edir.

Məktəbəqədər təhsil müəssisələrində uşaqların məktəbə hazırlığı üçün 5-6 yaşlılardan ibarət "Məktəbə hazırlıq" qrupları yaradılır ki, həmin qruplarda aşağıdakı məşğələlər təşkli olunur və didaktik əsaslara uyğun olaraq keçilir. Burada məşğələləlrin sayı 12 dir. Onlar aşağıdakılardır: 1. Bədii ədəbiyyat, Azərbaycan dili – həftədə 1 məşğələ 2. Nitqin inkişafı və uşaqların nitqinin inkişaf etdirilməsi – həftədə 1 məşğələ 3. Uşaqlara ətraf aləmi tanıtdırmaq. Bu fənnin tədrisində uşaqlara təbiət və ictimai həyat hadisələrinə marağın tərbiyə edilməsidir - həftədə 1 məşğələ. 4. Azərbaycan (rus qruplarında) dili – həftədə 2 məşğələ .5. Riyaziyyatdan sadə təsəvvürlərin inkişafı - həftədə – 1 məşğələ 6. Kəsib yapışdırma və təsviri sənət həftə aşırı – 1 məşğələ. 7. Müxtəlif materialalr üzərində iş və quraşdırma gil işi həftə aşırı – 1 məşğələ 8. Estetika musiqi - 2 məşğələ . 9. İdman fiziki mədəniyyət – 2 məşğələ. Hər məşğələnin müddəti 25-30 dəqiqədir. Hər məşğələdən sonra 10 -15 dəqiqəlik fasilə verilir. Zehni gərginlik olarsa, idman hərəkətləri, gimnastik təmrinlər də həyata keçirilir. Dissertasiyada hər fənnin keçirilmə

metodikası, didaktik – pedqoji əsasları təhslil edilir.

**3.2. "Məktəbə hazırlıq qruplarında kurıkulum üzrə ınteraktıv təlım prosesının təşkılı"** adlanan paraqrafda adından göründüyü kimi məşğələlərin interaktiv metodlarla tədrisi, yeni pedaqoji texnologiyaların tətbiqi məsələləri təhlil edilir və elmi şərhlər aparılır. Bu paraqrafda təlim məşğələlərində intreaktiv metodların üstünlükləri ətraflı şərh edilir.

Məktəbə hazırlıq qruplarında fəal təlim texnologiyalar üzərində tədrisi aşağıdakıları özündə səciyyələndirir: Uşaqların fəal surətdə düşüncə və təfəkkürə cəlb edilməsi, tədqiqatçılığa sövq edilməsi; Tərbiyəçi və müəllimlərin uşaqlarla fəal dialoqu, əməkdaşlığı və qayğıkeş münasibəti; Məktəbə hazırlıq qruplarında tədris proseində didaktik, rollu oyunlardan, uşaqlar üçün maraq yaradan vasitələrdən istifadə olunması; Məktəbə hazırlığın kiçik yaşlı məktəblilərin işgüzar fəaliyyəti üçün sinifdə sosial bərabər və psixoloji komfortlu şəraitin yaradılmalı. Sinif müəllimi bilik xəzinəsi yox, biliklərin axtarılması və cəlb edilməsi, tədqiqatın aparıcısı rolunu ifa edilməsi. Məktəbə hazırlq qruplarında hər bir şagirdin fəallığı və şüurluluğunun təimin edilməsi. Məktəbə hazırlıq qruplarında fəal təlim texnologiyaları ilə keçilən dərslərdə səciyyəvi olan cəhətlər isə aşağıdakılardır:

Şəxsiyyətin özünü və yoldaşalarını qiymətləndirilməsi; Müstəqil düşünməyi, sərbəst fikir söyləməsi; Öz təcrübəsini və biliyini təhlil etmək qabiliyyətini inkişaf etdirməsi; Əməkdaşlıq etməyi (başqaları ilə işləməyi bacarmaq, ümumi məqsədə çatmaq üçün işin bölüşdürülməsi) bacarması; Başqalarını dinləməyi, müxtəlif fikirlərə hörmət etməsi və dözümlü olması. Öz fikirlərini arqumentlərlə sübut və izah etməsi; Kreativ (yaradıcı) təfəkkürü inkişaf etdirməsi; Məsələnin birgə həlli yollarını müəyyən etməyi və qərar çıxartmağı formalaşdırması.

Məktəbə hazırlıq üzrə Kurikulumun tələblərinə əsasən təhsilin sonunda uşaqlar aşağıda göstərilən bilik bacarıq və vərdişlərə nail olmalıdırlar: Uşaqlar Sağlamlığı möhkəmləndirən hərəkətləri çəldliklə və çevikliklə yerinə yetirirlər; Uşaqlar keyfiyyətli qidalanma ilə təmin edilir və onlar sanitariya və gigiyena qaydalarına ciddi əməl edirlər; Uşaqlar fiziki hərəkətləri,

davranışlarını, iri, xırda hissiyatlı motorik hərəkətləri icra edir və koordinasiya edir; Hər yerdə, hər zaman özünün və başqalarının təhlükəsizliyini təmin edir və bunu önləyir; Uşaqlar nitqi dinləməyi bacarır, deyiləni analyır, rabitəli, məntiqli danışmağı bilir, mədəni nitq etiketlərindən istifadə etməyi bilir; Uşaqlar sadə təfəkkür əməliyyatlarını edir, sadə riyazi hesablamağı, saymağı bacarır, düşüncəli davranır; Uşaqlar əşyaları, predmetləri saymağı bacarır, baş verən hadisələri təsvir etməyi bilir, müəyyən fikir və mülahizələr, fərziyyələr irəli sürə bilir; Uşaqlar vətən haqqında müəyyən biliklərə malikdir. Vətənin dostlarını və düşmənlərini tanıyır və bu barədə sadə təqdimatlar edə bilir; Dövlətimizin rəmz və atributlarını tanıyır, himnimizi əzbər bilir və oxuyur, bayrağımızı, gerbimizi tanıyır və onun mənalarını yaxşı bilir və təsvir edir; Uşaqlar hamı ilə ünsiyyət qurmağı bacarır, onlar ünsiyyətcil və səmimdirlər; Uşaqlar hər yerdə, hamıya qarşı hörmətcildir, hamı ilə səmimiyyət və dözümlülülk, tolerantlıq nümayiş etdirir; Uşaqlar müəyyən əmək bacarıq və vədişlərinə yiyələnmişlər, onlar sadə əmək bacarıq və qabiliyyətlərini nümayiş etdirilər; Uşaqlar sadə bədii yaradıcılığa malikdirlər, onlar bədii parçalar söyləyə bilir, özlərinin yaradıcılıq qabiliyyətlərini nümayiş etdirirlər.

**3.3. "Məktəbə hazırlıq qruplarında təlim prosesinin təşkili prinsipləri"** – adından da göründüyü kimi metodik prinsiplərə əməl etməlidir.

Məktəbə hazırlıq qruplarında təlim prosesinin keyfiyyətinin yüksəldilməsi bir çox cəhətdən təlimin ümümi prinsiplərinin tətbiqindən asılıdır. Müəllim və tərbiyəçilər qəbul edilmiş təlim prinsiplərinə əməl etməlidirlər. Prinsip latın sözü olub *əsas, rəhbər, ideya , başlanğıc* deməkdir ki, bu da təlim prosesinin əsas mahiyyətini özündə əks etdirir. Məktəbə hazırlıq qrupları məlum olduğu kimi həm ümumtəhsil məktəblərində, həm də məktəbəqədər təhsil müəssisələrində təşkil edilib həyata keçirilir.

Məktəbə hazırlıq qruplarında məşğələləri ümumtəhsil məktəblərində təcrübəli sinif müəllimləri, məktəbəqədər təhsil müəssisələrində isə təcürbəli tərbiyəçilər təşkil edib keçirlər.

Məşğələrin təşklində ümumi pedaqoji prinsiplərə, təlimin müəyyən edilmiş prinsiplərinə və kurikulum tələblərindən irəli gələn prinsiplələrə ciddi əməl edilməlidir.

Kurikulum tələblərində təlimin şəxsiyyətyönümlü olması tələb olunur. Bu deməkdir ki, təşkili edilən təlim prosesi şəxsiyyətyönümlü prinsipinə əsaslanmalıdır. Yəni uşaqlara verilən bilik, bacarq və vərdişlər onların şəxsiyyətinin inkişafına istiqamətlənməlidir.

Şəxsiyyətin tərbiyəsinə, onun əxlaqi keyfiyyətlərinin inkişafına istiqamətlənməlidr.

Təlim prosesində fərdiləşmə və differensiallaşdırma prinsipi mühüm prinsiplər sırasındadır. Bu mühüm prinsip uşaq təbiətinin fərdi-psixoloji keyfiyyətlərini, maraqlarını, meyillerini və tələbatlarını, habelə uşaqların fizioloji və əqli qabiliyyətlərinin səviyyələrini, həmçinin psixoloji keyfiyyətlərini nəzərə almağı, uşaqların təliminin bu kimi keyfiyyətlər əsasında həyata keçirilməsini tələb edir.

Əyanilik prinsipi kiçik yaşlı uşaqlar üçün xüsusilə vacibdir. Əyani şəkildə qurulan dərs uzun müddət yadda qalar.

Əməkdaşlıq prinsipi pedaqoji elmimizə son dövrlərdə daxil olmuşdur. Bu prinsip tələb edir ki, məşğələlər dialoq formasında qurulsun, söhbət, sual- cavab şəklində həyata keçirilsin.

Nəticəyönümlülük prinsipi təlimin nəticəli olmasını tələb edir. Təşkil edilib keçilkən dəırsin, verilən biliyin nəticəsi olmalıdır. Hər bir məşğələ uşaqlara yeni biliklər verməldiir.

Elmilik prinsipi təlim prinsiplərində mühüm yer tutur. Uşaqlara verilən biliklər elmi əsaslar üzərində qurulmalıdır. Elmin son nailiyyətləri uşaqlara çatdırılmalıdır. Uşaqlara verilən biliklər, məlumatlar, faktlar elmi faktlara əsaslanmalıdır.

Möhkəmləndirmə prinsipi təlimin mühüm prinsiplərindəndir. Uşaqlara verilən biliklər möhkəmləndirlməlidir.

Sistemlilik, ardıcıllıq prinsipi adından göründüyü kimi məşğələlər sistemli şəkildə ardıcıl keçilməlidir.

Şüurluluq və fəallıq prinsipi tələb edir ki, məşğələlər uşaqların fəallığı şəraitində və yüksək şüurluluqla təşkil edilsin. Şüurlu keçilən

məşğələnin əsas əlaməti deyilən fikirlərin faktlarla, misallarla çatdırılmasıdır. Uşaqlar verilən biliyi aydın dərk etməlidirlər.

Təlimin həyatla, praktik işlə əlaqələndirilməsi prinsipi uşaq təbiətinə daha yaxındır. Müəllim və tərbiyəçilər uşaqlara verdikləri bilikləri həyati faktlarla əsaslandırmalı, uşaqların öz həyat təcrübələrindən nümunələr gətirilməlidir. Uşaqlara öyrədilən biliklər praktik təcrübələr vasitəsilə möhkəmləndirilməlidir.

Müvafiqlik prinsipi təlimin əsas prinsiplərindən sayılır. Yəni təlim prosesi uşaqların yaşına, gücünə, anlaq səviyyəsinə müvafiq olmaldır. Çətin sözlər və ifadələr, mürəkkəb cümlələr uşaq təbiətinə yaddır.

Təlim prosesinin optimal təşkli prinsipi məktəbə hazırlıq qrupları üçün də mühüm əhəmiyyətə malikdir. Optimallıq səmərəliliklə yaxın anlayışlardır. Yəni məşğələlər səmərəli və optimal şəkildə qurulmalıdır.

Bütün bu göstərilən prinsiplər bir-birilə sıx əlaqədardır və təlim prosesində kompleks şəkildə həyata keçirilməlidir.

Məktəbə hazırlıq qruplarında keçirilən məşğələlər göstərilən prinsiplərə müvafiq şəkildə qurulmalı və tələb olunan pedaqoji qaydalara əməl edilməlidir.

Dissertasiyada məktəbə hazırlıq qruplarında təlim məşğələləri Gəncə şəhərininin bir neçə məktəbində müşaiyət edilmiş, təcrübələr keçirilmiş və eksperimentlər aparılmışdır. Dissertasiyada keçirilmiş təcrübələr, aparılmış müşahidələr geniş təhlil edilmiş, müqayisələr və ümumiləşdirmələr aparılmışdır.

**3.4. “Ümumtəhsil məktəblərinin məktəbə hazırlıq qruplarında metodik işin təşkili xüsusiyyətləri”** adlanan paraqrafda göstərilir ki, ibtidai təhsilin uğurlu təşkili, kiçikyaşlı məktəblilərin uğurlu təlim fəaliyyətindəın asılıdır.

Qeyd edək kİ, birinci sinif ibtidai təhsilin əsası və ən mürəkkəb, ən çətin sahəsidir. Gələcək təhsil uğurları və ya uğursuzluqların mənbəyi məhz buradan başlayır. Düzgün davranış, həyatda fəal mövqe qazanmaq, əxlaq, mənəvi mədəniyyət, vətənsevərlik, əməksevərlik və digər keyfiyyətlər məhz buradan təşəkkül tapır, formalaşır və inkişaf edir. Birinci sinifə qəbul edilmiş uşaqlar çox müxtəlif səviyyəli, müxtəlif dünyagörüşlü, müxtəlif

sağlamlığa, istedad və qabiliyyətə, sosial təcrübəyə, psixoloji və intellektual hazırlığa malik uşaqlardır.

İbtidai sinif müəllimi ilk növbədə bu müxtəlifliyi dərindən öyrənməli, ona uyğun işini qurmalı, hər bir uşaq üçün düzgün diaqnostika aparmalı və nəhayət bu məlumatları portfolioda ardıcıl olaraq qeyd etməlidir. Bütün bunlar ibtidai sinif müəlliminin uğur əldə etməsinin ilkin başlıca təminatçısı olacaqdır.

Məktəbə hazırlıq qruplarına qəbulda bəzi problemlər də mövcuddur. Bu problemə I sinfə qəbul zamanı özünü göstərir. Belə ki, uşaqların birinci sinfə qəbulu müxtəlif hazırlıqlarla həyata keçirilir. Belə ki, uşaqların bir qismi xüsusi pedaqoji, psixoloji hazırlıq görmədən ailədən gəlir, bir qismi məktəbəqədər təhsildən gəlir, bir qismi də ümumtəhsil məktəbində təşkil edilmiş məktəbə hazırlıq qruplarından gəlirlər.

Ölkəmizdə ailələrin sosial, intellektual hazırlıqları da müxtəlif olduğundan və heç də ailələrin hamısı uşaqlarını məktəbə hazırlığını lazımi səviyyədə qura bilmədiklərindən burada artıq çətinliklər yaranmış olacaqdır. Bu sahədə valideynlər arasında maarifləndirmə, pedaqoji təbliğat işləri aparılmalıdır ki, valideynlər uşaqlarını məktəb təliminə pedaqoji, psixoloji cəhətdən düzgün hazırlaya bilsinlər.

*Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən uşaqların məktəb təliminə hazırlığının təşkili məsələləri barəsində 2016-cı il 11 iyul tarixli 271 nömrəli sərəncamına əsasən 2016-2017-ci tədris ilindən başlayaraq ümumtəhsil məktəblərində 5 yaşlı uşaqların dövlət hesabına məktəbə hazırlıq təhsilinə başlanmışdır*[4].

Bu qruplarda məşğələ aparmaq, təlim tərbiyə işlərinin təşkili üçün təcrübəli ibtidai sinif müəllimləri, metodist müəllimlər bu işə cəlb edilmişdir. Hazırda ümumtəhsil məktəblərində məktəbə hazırlıq qruplarında aşağıdakı məşğələlər keçirilir və hər məşğələ üçün dolğun, məzmunlu və nəfis şəkildə tərtib edilmiş məşğələ vəsaitləri, müxtəlif metodik kitablar, proqramlar vardır:1) Təsviri fəaliyyət; 2) Bədii təfəkkürün inkişafı; 3) Ətraf aləmlə tanışlıq; 4) Məntiq riyazi

---

[4] Uşaqların məktəbə hazırlığının təşkili məsələləri haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı./- Xalq, -2016, 11 iyul, -s. 1.

təfəkkür inkişaf etdirilməsi; 5) Savad təliminə hazırlıq və nitq inkişafı; 6) Bədət tərbiyəsi və idman. 7) Musiqi.

Məşğələlər həftədə 4 dəfə keçirilir və həftəlik saatlarının miqdarı 12 saat müəyyənləşdirilmişdir ki, hər məşğələ 30 dəqiqə aparılır və məşğələlər arası 10 dəqiqəlik tənəffüslər verilir. Gərginlik tələb edən məşğələlərdə uşaqlar 3 -4 dəqiqəlik idman hərəkətləri edirlər. Uşaqların təlim fəaliyyəti şifahi formada həyata keçirilir, davamiyyət isə xüsusi sinif jurnalında qeydlər edilir.

Müəllim uşaqların təlim fəaliyyətinə görə müxtəlif rəğbətləndirmə növlərindən istifadə edir, onları stimullaşdırır, daha çox müsbət fəaliyyətə motivasiya edir.Məktəbə hazırlıq qruplarında məşğələ aparan müəllimlər yüksək sınaq imtahanları vermiş, diaqnostik imtahanlaradan yüksək bal toplamış IV sinif müəllimllərinə həvalə olunur ki, onlar sonradan həmin uşaqlarla I sinifdə məşğul olacaqlar. Bu qruplarda məşğələ aparan müəllimlər müxtəlif hazırlıq seminar və kurslarına cəlb olunurlar.

Bu qruplara cəlb olunan uşaqların sayı kənd və qəsəbələrdə 10 -20 uşaq şəhər məktəblərində isə 15- 30 uşaq olması pedaqoji cəhətdən məqbul hesab edilir.

Məktəbə hazırlıq qruplarında uşaqaların bu istiqamətlərdə təlim fəaliyyəti onların hərtərəfli intellektual hazırlığına yönəldilmişdir. Ümumtəhsil məktəblərində məktəbə hazırlıq qruplarının məşğələləri 1 oktyabrda başlayır və 31 mayda bitir. Dissertasiyada məktəbə hazırlığın problemləri qruplaşdırılmışdır və onların hər biri haqqında elmi şərhlər verilmişdir.

## NƏTİCƏ VƏ TƏKLİFLƏR

Dissertasiyanın "Nəticə"ləri tədqiqatın ümumi məzmunundan, aparılmış tədqiqat və eksperiment işlərin nəticəsindən irəli gəlmişdir.

1. Təcrübə və tədqiqatlardan məlum olmuşdur ki, ümumtəhsil məktəbində təhsilin keyfiyyətinin yüksəldilməsinə ümumtəhsil məktəblərində və məktəbəqədər təhsil müəssisələrində təşkil edilən

məktəbə hazırlıq qrupları çox əhəmiyyətli və mühüm əhəmiyyət kəsb edir.

2. Məktəbə qədər təhsil müəssisələrinə və ya məktəbə hazırlığa getməyən uşaqlar ən azından qısa müddətli - 2 həftəlik hazırlıq qruplarına cəlb edilməsini vacibli hesab edirik.

3. Problemlə əlaqədar müəyyən edilmişdir ki, məktəbəqədər təhsil müəssisələrində, həmçinin məktəbəqədər təhsilə cəlb edilməyən uşaqların qısamüddətli qruplarda təlimi məktəbəqədər təhsilin sonu üçün nəzərdə tutulan təlim nəticələri nəzərə alınmaqla aparılarsa, məktəbin ibtidai təhsil səviyyəsi arasında varislik gözlənilmiş olacaqdır.

4. Məktəbəqədər təhsil müəssisələrində vahid proqram əsasında təlim aparıldığı üçün məktəblə məktəbəqədər müəssisə arasında məzmunda fərqlilik yaranmır, varislik pozulmur.

5. Beşyaşlıların məktəbə hazırlığı ilə əlaqədar müəllim və tərbiyəçilərin fəal və interaktiv metodların metodika və texnologiyasına yaxşı yiyələməlidirlər. Çünki burada keçirilən məşğələlər fəal və interaktiv təlim metodları ilə həyata keçirilməlidir.

6. Birinci sinfə gedən uşaqların hazırlıq səviyyəsi ilə tanış olduqdan sonra məlum oldu ki, uşaq bağçalarına getməyən uşaqlar məktəb həyatına çətin adaptasiya olurlar və onların bilik səviyyəsi, dünyagörüşləri məktəbə hazırlığa gedənlərdən aşağı səviyyədədir.

7. Məktəbə hazırlığın məktəbəqədər təhsil müəssisələrində təşkil edilməsi həm metodiki təchizat, həm də kadr baxımından daha səmərəli nəticə verə bilər.

8. Məktəblərdə təşkil edilmiş məktəbəhazırlıq qruplarında metodiki təchizatın zəifliyi və pərakəndəlik işin səmərəliliyini azaldır.

9. Respublikanın rayonlarında əsasən qarışıq qruplar fəaliyyət göstərir. Bu komplektləşdirmə zamanı əsasən böyük qruplar fəaliyyət göstərir, məktəbəhazırlıq qrupları olmur. Odur ki, orta qrup uşaqları da qrupun səviyyəsi yüksək olduqda vaxtaşırı məktəbə hazırlıq qrupunun proqramı ilə də məşğul ola bilərlər.

10. Azkomplektli müəssisələrdə ailədən gələn uşaqların bəzən təhsil səviyyəsinin aşağı olması sonrakı təhsil illərinə də öz təsirini

göstərmiş olur. Bu da növbəti təhsil mərhələsində onların təlim nailiyyətlərinə, təhsilinə mənfi təsir göstərmiş olur.

11. Bəzi hallarda valideynlərin məktəbə hazırlıq məşğələlərinə və ya müəllimin pedaqoji fəaliyyətinə müdaxilə etməsi pedaqoji cəhətdən düzgün sayılmaıdğı kimi, uşağın təhsilinə və tərbiyəsinə də öz neqativ təsirini göstərmiş olur.

12. Kifayət qədər məktəb hıyatına hazırlıqsız gələn uşaqlar həmyaşıdlarına nisbətən geridə qalırlar və bu onların gələcək təhsil illərində də özünü göstərir.

**Tədqiqatdan yaranan aşağıdakı təkliflər irəli sürülür**: Uşaq orqanizminin, psixikasının inkişaf xüsusiyyətlərinə istinadən məktəbəqədər yaşlı uşaqlar üçün məktəb təliminə adekvat hazırlıq sisteminin yaradılması vacibdir. Bu səbəbdən daha çox uşağın məktəbəqədər təhsilə cəlb olunması, məktəbə qədəm qoyan uşaqların gələcək dərs fəaliyyətinə və məktəb mühitinə daha rahat uyğunlaşması, uşaqların vaxtlarının daha səmərəli keçməsi üçün qısamüddətli təlim qruplarının yaradılmasını zəruri edir. Məktəbə hazırlıq qruplarının təşkilində uşaq bağçalarında qısamüddətli məktəbəhazırlıq qruplarına cəlbi istiqamətində fəaliyyətin genişləndirilməsi məqsədəuyğundur. Məktəbə hazırlıq qruplarının məktəb təliminə hazırlıq səviyyəsinin yüksəlməsi üçün məktəbəqədər müəssisələrdə məktəbəhazırlıq qruplarının sayının artırılması məqsədəuyğundur. Məktəbə hazırlıq qruplarında məktəb təliminə yüksək səviyyədə hazırlığının təmin edilməsi üçün lazımi peşəkarlıq səviyyəsi olan tərbiyəçilərin seçilməsi mühümdür.Məktəblərdə təşkil edilən qısamüddətli qruplarda uşaqların psixoloji, fiziki və kommunikativ inkişafına xüsusi diqqət yetirilməlidir. Məktəbə hazırlıq qruplarında məktəb həyatına hazırlıq zamanı aparılan işin səmərəliliyini təmin etmək üçün müasir pedaqoji tələblərə uyğun didaktik materiallar, metodik vəsaitlər və digər texnoloji materialların hazırlanması və məktəbə qədər müəssisələrin və ümumtəhsil məktəblərinin tədris avadanlıqlarına daxil edilməldir. Bura daxil ola bilər : proyektorlar, kompyuterlər, video kameralar, video çarxlar, disklər, kasetlər, ağıllı lövhələr, maqnitafon və s. texniki vasitələrlə təchiz olunması məqsədəmüvafiq hesab edilir.Məktəbə hazırlıq qruplarında məktəb

təliminə hazırlığın keyfiyyətinin yüksəldilməsi üçün uşaq bağçası ilə məktəb arasında varislik gözlənilməlidir. Az komplektli məktəbəqədər təhsil müəssisələrində məktəbəhazırlıq qruplarının komplektləşdirilməsi zəruridir. Məktəbə hazırlıq qruplarının məktəb təliminə hazırlığı işinin yüksəldilməsi üçün yerli icra orqanları və bələdiyyələrin bu işin təşkilində yaxından iştirak etmələri vacibdir. Məktəbə hazırlıq qruplarının məktəbə hazırlığı ilə əlaqədar məktəbəqədər təhsilin kurikulumu əsasında metodik vəsaitlərin hazırlanmasına ehtiyac vardır. 5-6 yaşlıların məktəbəhazırlığı ilə əlaqədar valideynlərin maarifləndirilməsi problemin həlli baxımından əhəmiyyətli hesab edilir. Məktəbəqədər müəssisələrdə uşaq yerlərinin beşyaşlıların ümumi sayı ilə nisbətdə məhdud olduğunu nəzərə alaraq, orada beşyaşlıların 2 növbədə olmaqla 1,5-2 saatlıq məşğələlərə cəlb edilməsi, uşaq bağçalarında müvafiq şərait olmadığı halda, hazırlıq məşğələlərinin məktəblərdə məktəbəqədər təhsil mütəxəssisləri tərəfindən həyata keçirilməsi nəzəri və praktik cəhətdən faydalıdır.

Dissertasiyanın ədəbiyyat siyahısı tələb olunan qaydalar əsasında tərtib edilmiş və daha çox son dövrlərdə yazılmış, hazırlanmış ədəbiyyatlardan istifadə edilmişdir.

## Dissertasiyanın əsas məzmunu, tədqiqatda irəli sürülən başlıca ideyalar, əldə olunan nəticələr müəllifin çap olunmuş aşağıdakı əsərlərində öz əksini tapmışdır:


1. Müəllimin praktik fəaliyyəti üçün bəzi qaydalar // Kurikulum. Elmi-metodik jurnal, 2012, №4, s. 87-88.
2. Məktəbə hazırlıq mərhələsində uşaqların əqli tərbiyəsinin inkişafına təsir göstərən amillər // Naxçıvan Müəllimlər İnstitutu. Naxçıvan Müəllimlər İnstitutunun elmi xəbərləri. Naxçıvan, 2014, №4 (10), s. 47-52.
3. Uşağın məktəb təliminə hazırlığının fizioloji və psixoloji mexanizmi // Naxçıvan Müəllimlər İnstitutu. Naxçıvan Müəllimlər İnstitutunun elmi xəbərləri. Naxçıvan, 2015, №4 (11), s. 39-43.

4. Məktəbə hazırlıq mərhələsində uşaqların idrak fəallığının artırılmasında riyaziyyat fənninin rolu // Gəncə Dövlət Universiteti. Elmi xəbərlər. Fundamental, humanitar və təbiət elmləri seriyası. Gəncə, 2016, № 1, s.305-309.
5. Роль социально-психологических факторов в подготовке к щколе детей дошкольного возраста // Педагогічнінауки. Збірник наукових прац. Украины, 2016, №1, Ст.72-75.
6. Ümumtəhsil məktəblərində məktəbəhazırlıq qruplarında pedaqoji, psixoloji və metodik işlərin təşkili // Naxçıvan Universiteti. Elmi əsərlər. Naxçıvan, 2021 №3 (22), s. 245-250.
7. Педагогическая, психологическая и социальная подготовка детей в щкольных подготовительных группах // Обмен Знаниями В Образовательном Процессе. Сборник Научных Трудов. Россия. Казань, 2021, Ст.167-168.
8. Məktəbdə uşaqların məktəb təliminə hazırlanması işinin məzmunu və metodları // ADPU. Pedaqoji Universitetin xəbərləri. humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası. Bakı, 2021, №2, s.168-174.
9. Məktəbə hazırlıq qruplarında varislik // Azərbaycan Dillər Universiteti. Elmi xəbərlər. Bakı, 2023, №2, s. 153-158.
10. Məktəbəqədər yaşlı uşaqların fiziki tərbiyəsi // ARTN.Doktorantların və gənc tədqiqatçıların XVIII respublika elmi konfransının materialları. Bakı, 2013, №2, s. 312-314.
11. Dünyagörüşün formalaşmasında ailənin rolu // BDU. Ümummilli lider H.Əliyevin 90 illik yubileyinə həsr olunmuş “Təhsil və cəmiyyət” mövzusunda V respublika elmi-praktik konfransı. Bakı, 2013, s.255-257.
12. Uşaqların məktəb təliminə hazırlığı problemi haqqında // BDU. Ümummilli lider H.Əliyevin anadan olmasının 93 illik yubileyinə həsr olunmuş “Təhsildə pedaqoji yanaşmalar: keçmişin təcrübəsi və gələcəyə baxış” mövzusunda ümumrespublika elmi-praktik konfransın materialları. Bakı, 2016, s. 47-49.
13. Ümumtəhsil məktəbində məktəbə hazırlıq qruplarında pedaqoji, metodiki işin təşkili // BDU. Azərbaycan Prezidenti İlham Əliyev və milli vətənpərvərliyə həsr olunmuş “Müasir təhsilin

məzmununda milli-mənəvi və ümumbəşəri dəyərlər" mövzusunda respublika elmi konfransının materialları. Bakı, 2021, s. 227-231.
14. Uşaqların məktəbə hazırlığında dövlət siyasəti // ADPU. 3.Beynəlxalq elm və təhsildə innovativ texnologiyalar simpoziumu. Bakı, 2021, s. 314-315.
15. Pedagogical problems of preparation of children for school education in the early stages of formation and development of preschool education in Azerbaijan // The XII International Scientific Symposium "East and West: Inteqration of Cultures"/ Eskishehir/ Turkey, 2021, s.108-111.
16. Məktəbəhazırlıq qruplarında metodoloji işin təşkili // Usbik. Uluslararası sosyal bilimler kongresi. Kayseri-Turkey, 2021, s. 42.

Disertasiyanın müdafiəsi 26 aprel 2024-cü il tarixində saat 11⁰⁰

Naxçıvan Müəllimlər İnstitutu nəzdində fəaliyyət göstərən FD 2.40 Dissertasiya şurasının iclasında keçiriləcəkdir.

Ünvan: Naxçıvan MR, Naxçıvan şəhəri, Heydər Əliyev prospekti 1, AZ7003, Naxçıvan Müəllimlər İnstitutu.

Dissertasiya ilə Naxçıvan Müəllimlər İnstitutunun kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Naxçıvan Müəllimlər İnstitutunun rəsmi internet saytında (www.nmi.edu.az) yerləşdirilmişdir.

Avtoreferat 19 mart 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 18.03. 2024.

Kağızın formatı: A5

Həcm: 41190

Tiraj: 100